*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1* *ISSN 2663-4368*
*Səhifə: 311-315* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.1.311*

# Milli teatr rejissurasının poetika konturları

**Şəhla Heydərli**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
E-mail: shahla.heydarli@admiu.edu.az

**Annotasiya.** Məqalənin tədqiqat oyektini müstəqilliyin bərpasından sonrakı dövrdə teatr sənətinin inkişaf aspektləri təşkil edir. Araşdırmanın məqsədi yeni ictimai-siyasi şəraitdə bir sıra dəyişikliklərə məruz qalmış teatr prosesinin dərin analizi, müfəssəl təhlili nəticəsində əldə olunan mənəvi dəyərlərin mənəviyyat sistemindəki mövqeyini müəyyən etməkdir. Məqalədə, həmçinin keçmiş Sovet hakimiyyəti illərində təzyiqlər nəticəsində ideya-estetik baxımdan müxtəlif deformasiyaya uğramış teatr poetikasının yenidən bərpa olunmağa başlaması prosesi nəzərdən keçirilir. Tədqiqat işi müasir dövr milli teatr sənətinin dil ifadə vasitələrində baş verən əhəmiyyətli dəyişikliklərin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Burada mədəniyyət və incəsənətimizin mahiyyətinə ciddi təsir göstərən milli teatr sənətinin zəngin ənənələrini qorumaq şərtilə dünya teatr prosesinə meyillənmə amilləri təhlil olunur.
**Açar sözlər:** səhnə mədəniyyəti, estetik fikir, yaradıcılıq, mənəvi dəyərlər, bədii düşüncə

**Məqalə tarixçəsi:** göndərilib – 17.05.2024; qəbul edilib – 30.05.2024

# Poetics outlines of the national theater direction

**Shahla Heydarli**
Azerbaijan State University of Culture and Arts
E-mail: shahla.heydarli@admiu.edu.az

**Abstract.** The research object of the article is the development aspects of theater art in the period after the restoration of independence. The purpose of the research is to determine the position of moral values in the system of spirituality obtained as a result of a deep analysis and detailed analysis of the theater process, which has undergone a number of changes in the new socio-political conditions. The article examines the process of reviving theater poetics, which was deformed in terms of ideas and aesthetics as a result of pressures during the years of the former Soviet rule. The research work is important from the point of view of studying significant changes in the means of language expression of modern national theater art. Here, the factors influencing the world theater process are analyzed, under the condition of preserving the rich traditions of the national theater art, which have a serious impact on the essence of our culture and art.
**Keywords:** stage culture, aesthetic thought, creativity, moral values, artistic thinking

**Article history:** received – 17.05.2024; accepted − 30.05.2024

## Giriş / *Introduction*

Bugünədək milli teatrşünaslıqda poetika problemi kifayət qədər araşdırılsa da, məsələnin geniş konseptual əsasları, eləcə də spesifik xarakterlərinin elmi cəhətdən ümumiləşdirilməsinə ciddi ehtiyac hiss olunur. Elmi istinadlara, həmçinin əldə etdiyimiz nəticələrə əsasən bütün metodoloji üsullar iş alətləridir.

Mövzunun araşdırılmasına dünyanın qədim dövrlərdən etibarən formalaşmış teatr təsəvvüründə mövcud olan və bu sahədə əsas rol oynayan tarixi poetikalara qısaca diqqət yetirməklə başlamağı məqsədəuyğun hesab edirik. Teatr tarixi ilə bağlı aparılmış tədqiqatlar göstərir ki, Antik dövrdə Aristotelin adı ilə məşhurlaşmış Qərbi Avropa teatr təfəkkürü və poetikasının nəzəri, konseptual, bədii-estetik, eləcə də psixoloji səciyyələri qədim yunan teatr düşüncəsindən bəhrələnərək, Avropa mədəni məkanında uzun illər davam etmiş inkişaf yolu keçərək təkmilləşmişdir. Teatr poetikası ilə bağlı elmi konseptual anlayışın müasir anlamda mahiyyəti XX yüzilliyin başlanğıcında görkəmli teatr reformatoru və nəzəriyyəçisi Konstantin Stanislavskinin teatr səriştəsində öz əksini tapmışdır. Şübhəsiz ki, bu sistemin XX əsr teatr sənətinin inkişaf prosesində, həmçinin yeni poetikaların təşəkkülündə ciddi təsiri hiss olunmuşdur. K.Stanslavskinin teatr dünyasına bəxş etdiyi bu poetikanın fundamental inkişafı zaman və məkanın vəhdəti, eləcə də rasional əməli analiz kimi dəyərləndirilmişdir.

## Əsas hissə / *Main Part*

XX əsr siyasi-ictimai proseslərindən bəhrələnən teatr düşüncəsinin təşəkkülü və inkişafı Almaniyanın görkəmli dramaturqu, rejissor, səhnədə zaman və məkanın əsas nəzəriyyəçisi Bertold Brextin fəaliyyəti ilə sıx bağlıdır. Mədəniyyət sahəsində zəngin elmi və praktiki yaradıcılığını dövrün məşhur Berliner Ansambl teatrında məharətlə sınaqdan keçirərək təsdiqləmiş B.Brextin XX yüzilliyin ikinci yarısında Qərbi Avropada teatr sənətinin inkişafına mühüm təsiri danılmazdır. O, daxili strukturu və Şərq sənət düşüncəsini mənimsəyərək öz nəzəriyyəsinin əsasına nəqletmə prinsipini qoymuşdur. Başlıca ifadə vasitəsi kimi isə yadlaşma üsulundan məharətlə istifadə edərək, o dövr üçün yenilik hesab olunan siyasi teatr düşüncəsi və təcrübəsini formalaşdırmağa müvəffəq olmuşdur.

XX əsrin ortalarından etibarən Qərbi Avropada II Cahan savaşından sonrakı ictimai-siyasi vəziyyət, sosial-iqtisadi və psixoloji proseslərin ciddi təsiri nəticəsində yaradıcı mühitin yeni inkişaf mərhələsində iki poetika növü yaranmışdır. Şübhəsiz ki, yeni formalaşan poetika növlərinin hər birinin keçmiş ənənələrə nisbətən avanqard gələcəyə istiqamətləndirilməklə inkişafı diqqəti cəlb etmişdir.

1988-ci ildən başlayaraq bir çox müəssisə kimi teatrlar da bağlanmış, təəssüf ki, qapılarına qıfıllar asılmışdı. Teatrların üzləşdiyi yaradıcılıq məhdudiyyəti istər teatrsevərlərin, istərsə də tamaşaçıların gözünü yolda qoymuşdu. Lakin cəmiyyətin ziyalı təbəqəsi və sənət adamları bədii ifaçılıq sənətinin yaşaması və inkişaf etməsinin zəruri olduğunun fərqində olmuşlar. Doğrudur, mövcud çətinliklər məngənəsində yaşamaq uğrunda mübarizə aparan və tamaşaçılarını salonlarına qaytarmaqda müxtəlif problemlərlə üzləşən teatrlarımız, bədii-estetik cəhətdən mükəmməl səhnə fəaliyyəti göstərməsələr də, hər halda, tamaşalar hazırlamağa davam etmişlər. Sözsüz ki, belə acınacaqlı şəraitdə dramaturgiyamızın da tənəzzülə uğraması qaçılmaz olmuşdur. Dövrün əsas problemlərindən biri kimi teatrların dövlət tərəfindən maliyyələşməsinin aradan qalxmasını da xüsusi vurğulamaq lazımdır. Maddi çatışmazlıqları aradan qaldırmaq üçün teatrlar müxtəlif sponsor axtarışlarına çıxaraq onlara böyük ümidlər bəsləmişlər. Teatrlar öz fəaliyyətində mövcud mənfi təsirlərə və düşdükləri ağır vəziyyətə qarşı mübarizələrini 1992-ci ilə qədər davam etdirmişlər.

Bir məqamı da xüsusilə qeyd etmək yerinə düşər ki, siyasi qarışıqlıq dönəmi teatr sənətinə mənfi təsir göstərmişdir. Baxmayaraq ki, siyasət və sənət ayrı-ayrı anlayışlardır, ölkə daxilində bu mənfi tendensiya özünü açıq-aydın büruzə ver-

mişdir. 1991-ci ilin oktyabr ayının 18-də yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası da bir sıra ciddi ictimai-siyasi və sosial-iqtisadi çətinliklərlə üzləşmişdi. Keçmiş Sovet respublikaları ilə iqtisadi əlaqələrin itirilməsi mədəniyyətimizdə, həmçinin iri və xırda çətinliklərlə teatrımızda duyulmuş, hətta texniki avadanlığın ardıcıl təchizatında da böhran hiss olunmuşdu.

Müstəqillik dövrünün teatr sənəti poetika baxımından bir sıra dəyişikliklərə məruz qalmış, teatr prosesinin başlıca məqsədi dərin analiz, müfəssəl təhlil nəticəsində əldə olunan yeni mənəvi dəyərlərin ənənənin mənəviyyat sistemində özünü göstərməklə mövqeyi müəyyən olunmuşdur. Bir zamanlar konyuktor basqılar nəticəsində ideya-estetik deformasiyaya uğramış teatr poetikası yenidən bərpa olunmağa başlamışdır. Bu zaman teatr sənətinin dil-ifadə vasitələrində də əhəmiyyətli dəyişikliklər baş vermiş, bütövlüklə milli teatr vasitəsi mədəniyyət və incəsənətimizin milli mahiyyətini, milli-mədəni ənənələrini qorumaq şərtilə dünya teatr prosesinə tam açıq olmağa meyillənmişdir.

Müstəqillik dövrünün teatr sənəti ictimai-iqtisadi parametrlərlə bərabər, poetika baxımından da bir sıra dəyişikliklərə məruz qalmışdır. Ötən dövrlərdən fərqli olaraq, müstəqillik illərində Azərbaycan teatrında yeniləşmə meyilləri güclənmiş, sənət düşüncəsi steriotiplərdən qurtulmağa çalışmış, rejissorlar müasir dövrün yeni məqsəd və vəzifələrinə uyğun yozumlar ortaya qoymağa, aktual səhnə əsərləri yaratmağa istiqamətlənmişlər. Müstəqilliyin ilk günündən tarix boyu teatr sənətimizin inkişafına istiqamət vermək amalını böyük səylə yerinə yetirən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, klassik və müasir yazıçıların, eləcə də dünya dramaturqlarının əsərlərini səhnələşdirməklə milli teatr sənətinin inkişafı üçün ciddi mübarizə aparmışdır.

Müstəqilliyimizin əvvəllərində teatr düşüncəsinin potensial imkanlarının ictimai-siyasi proseslərin gedişatı ilə bağlı olması aydın görünür. Teatr prosesinin milli sənət təfəkkürünə gətirdiyi yeniliklər məhz onun universallığı ilə bağlıdır. Universallıq və vəhdət nöqteyi-nəzərindən baxanda problem konseptual şərtlərini önə çıxararaq öz kəskinliyini itirir. Tamaşa zamanı zalda min nəfərin olması nə tamaşanın yüksək keyfiyyətli, nə aktyorların güclü olması, nə də teatr sənətinin qüdrətinin göstəricisi deyildir.

Akademik Milli Dram Teatrının təmir işlərinə dayanmış binasının təchizatlarla təmin olunması təxminən 6 aya başa gəlmişdir. Teatr kollektivi tamaşaları Bakı şəhərinin ayrı-ayrı teatr binalarını bir günlük kirayələməklə nümayiş etdirmək məcburiyyətində qalmışdır. Müharibənin çətin vəziyyətində aylarla dövlət teatrlarında fəaliyyət göstərən yaradıcı insanlara maaş verilməmişdir. Lakin ölkəmizdə mövcud hərbi-siyasi və sosial-iqtisadi vəziyyətlə bağlı bütün baş verənlərə rəğmən, hər hansı bir dövlət teatrı öz statusundan məhrum olmamışdır. 1993-2000-ci illəri əhatə edən dövrdə respublikamızda müstəqil fəaliyyət göstərən Yuğ və Pantomima kimi teatrlara dövlət statusu verilmişdir. Qazax və Qusar rayonlarında yeni teatrlar fəaliyyətə başlamışdır.

1989-cu ildə ölkənin məşhur rejissoru Vaqif İbrahimoğlunun təşəbbüsü və rəhbərliyi altında yaradılmış Yuğ Teatrı 1990-cı ildə dövlət təsisatına keçmişdir. Milli teatr sənətində xüsusi yer tutan Yuğ Teatrı öz poetikası ilə fərqlənir. Teatrda bədii rəhbərin birbaşa iştirakı ilə səhnə repertuarı qurulur. Teatrda yerli dramaturqların əsərləri ilə birlikdə dünya yazarlarının da seçmə əsərləri nümayiş olunur.

Xüsusi vurğulamaq lazımdır ki, milli teatr prosesi, onun tarixi kökləri, milli teatr poetikası son zamanlar kifayət qədər araşdırılmışdır. Milli teatr sənətinin strateji istiqamətlərini düşünərkən, ilk növbədə, inkişafın mənəvi şərtlərini araşdırmalıyıq. Bu mənada, teatr prosesinin strateji məqsədini özünəməxsus poetikada tədqiq etmək üçün dünya teatrının milli teatrımıza olan təsiri və bu təsirin nəticələri ilə yaxından tanış olmaq lazımdır.

1990-cı illərdən sonra müstəqillik əldə etmiş Azərbaycanda sənətkarlar sərbəst şəkildə fəaliyyət göstərməyə başlamışlar. Həmin illərdə ölkənin müstəqillik əldə etməsi bütün sahələrdə öz təsirini birmənalı şəkildə büruzə vermişdir. Bu təsir incəsənətdə özünü daha qabarıq şəkildə göstərmişdir. Mövzunu birbaşa 90-cı illərə şamil etmək işin əsas aspektini təşkil etdiyinə görə, biz rejissor sənətinin poetika göstəricilərini o dövrün rejissor yaradıcılığı əsasında aparacağıq.

Bu illərdə mədəniyyətdə köklü dəyişiklik diqqəti cəlb edir. 90-cı illərədək Azərbaycanda əsərləri qadağan edilmiş dramaturqların əsərlərinə teatrlar müraciət etməyə başlamışlar. Hər

bir teatr öz qayəsini və inkişaf prosesini sanballı pyeslər ətrafında apardığı üçün bu illərdə də istedadlı dramaturqlara böyük ehtiyac duyulmuşdur. Bu barədə teatrşünas Cabir Səfərovun da fikri mühüm əhəmiyyət kəsb edir: “Dramaturqla rejissorların birgə yaradıcılıq işi elə qurulmalıdır ki, müəllifin üslubuna xələl gəlməsin. Başqa cür olsa, tamaşa müəllifinin pyesdəki ideyası təhrif olunar” [5].

Teatrşünasın bildirdiyi fikirdən aydındır ki, mühüm olan, ilk növbədə, pyes, sonra isə rejissor təxəyyülüdür. Rejissor teatrın köklü sürətdə dəyişməsinə və inkişafına təkan verən başlıca vasitədir. Hər teatrın öz üslub xətti var və bu prosesin köklü sürətdə dəyişməsi və ya əksinə, həmin istiqamətlə irəliyə doğru addımlaması rejissorun üzərinə düşür. Teatrın poetikasını çözələyən teatrşünas, professor Məryəm Əlizadə yazır: “Teatr düşüncəsinin Azərbaycan milli sənət təfəkküründə özünəməxsus yeri vardır” [1].

XX yüzilliyin 90-cı illərində ilk dəfə olaraq Azərbaycanda yeni teatrlar, müxtəlif fərqli rejissor üslubları meydana gəlmişdir. Teatrlar bundan əlavə, sərbəst şəkildə özlərinin dramaturq seçimi etmək, lazımi pyesi səhnələşdirmək, yaradıcı şəxslərin işə cəlb olunması və yaradıcı ortamın daha geniş aspektdə inkişaf etdirilməsi kimi keyfiyyətləri əldə etmişlər. Ölkənin müstəqillik əldə etməsi hər kəsə yaradıcı bacarıqlarını göstərməyə şərait yaratmış, əvvəllər qadağan edilmiş pyesləri tamaşaya qoymaq imkanı qazanılmışdır. Bu barədə teatrşünas İlham Rəhimli yazır: “Milli teatr poetikası çərçivəsində üstqurum münasibətində olan ideya-bədii və maddi-texniki əsasların bağlılığı və təsiri nəticəsində milli teatr poetikası səhnədə bədiilik qazanır. Hər ikisinin inkişafı üzvi şəkildə milli teatr və onun poetikasının inkişaf perspektivlərini də müəyyənləşdirir” [4].

Azərbaycanın yeni gənc rejissor nəsli inkişaf etdikcə ayrı-ayrı teatrlar yaranır, hər kəs öz üslubunu müəyyənləşdirib, fəaliyyət sferasına uyğun tamaşalarla tamaşaçı qarşısında çıxış etməyə başlamışdır. Bu illərdə Azərbaycanda ilk özəl teatrlar yaranmış, bunların sırasında Bakı Marionet Teatrı (1987), Yuğ (1989), Gənclər Teatrı (1989), Estrada (1990), Kamera (1991), Bakı Bələdiyyə (1992), İlham Miniatür Teatrı (1993), və s. kimi teatrlar fəaliyyət göstərmişlər. Bu teatrların bir qismi bugünədək fəaliyyətini davam etdirsə də, digərləri maliyyə məsələlərinə görə bağlanmışdır. Lakin sonradan yenə özəl teatrlar Üns Yaradıcılıq Mərkəzi (2006), Oda (2013), Rebus (2015), Əsa (2016), Human (2017) və digərləri fəaliyyətə başlamışdır.

Adları çəkilən teatrların hər birinin özünəməxsus repertuar siyasəti, rejissor üslubu vardır. Bu teatrlarda ayrı-ayrı sənətkarların birgə ərsəyə gətirdikləri kollektiv işin bəhrəsi olan maraqlı, əsrarəngiz tamaşalar diqqəti cəlb edir ki, mövzu və formaca da digərlərindən fərqli və baxımlılığı ilə yadda qalır. Bir-birinin ardınca özəl teatrların yaranıb, yenidən bağlanmasını professor Məryəm Əlizadə qısaca belə xarakterizə edir: “Teatr sənətinin inkişaf prosesinə iqtisadi inkişafımız müsbət təsir göstərmişdir. Paytaxtda yeni teatrlar yaranmağa başlamışdır. Arasında fərqli poetikası və yaradıcı metodları ilə Yuğ teatrı, Gənclər teatr studiyaları xüsusilə fərqlənir” [1].

## Nəticə / *Conclusion*

Beləliklə, kiçik bir ölkədə birdən-birə bu qədər özəl teatrların fəaliyyətə başlaması, əslində, müsbət hal kimi dəyərləndirilməlidir ki, bu da həm rejissorlara, həm də aktyorlara geniş imkanlar yaradır. Beləcə, rejissorlar istənilən poetik konturlar əsasında tamaşa hazırlamaq imkanı əldə etmiş, müstəqil, azad tamaşaçıların fikirlərilə üst-üstə düşən tamaşalar hazırlamışlar. Aktyorlar özlərini müxtəlif üslub və janrlarda olan tamaşalarda sınayaraq, öz daxili aləmləri ilə uzlaşan teatrları seçməklə cəmiyyətdə baş verən siyasi-ictimai problemləri tamaşa vasitəsilə hər kəsə çatdırmışlar.

Teatrın sərbəst fəaliyyət göstərməsi bir cəhətdən yaxşı olsa da, digər cəhətdən, özəl fəaliyyət göstərməsi maddi baxımdan onlara sıxıntı yaratmışdır. Bununla bağlı, Ədalət Vəliyev yazır: “Elə bu dövrdə teatr sənətçilərinin hamısı praktikada tam əmin oldular ki, teatrın təkbaşına, yalnız özünə güvənərək yaşaması mümkün deyil” [6]. Ona görə də, bütün teatrlar yenidən dövlətlə qırılmaz tandemdə işləmək arzusunu açıqca bildirmişlər.

**Ədəbiyyat / *References***

1. Əlizadə, M. Teatr: seyr və sehr; milli teatr prosesi problemləri. M.Əlizadə. – Bakı: Elm, 1998. – 200 s.
2. İsrafilov, İ. Adil İskəndərovun teatrı. İ.İsrafilov. – Bakı: Mars, 2001.– 160 s.
3. İsrafilov, İ. Zaman, rejissor, poetika. – Bakı: Elm, 1999. – 180 s.
4. Rəhimli, İ. Azərbaycan teatr tarixi: [5 cilddə]. İ.Rəhimli. – Bakı: Şərq-Qərb, c.5, 2018. – 422 s.
5. Səfərov, C. Teatr və repertuar. – Bakı: "Azərbaycan" jurnalı, 1964, №1.
6. Vəliyev, Ə. Teatr, ruh və əqidə. Ə.Vəliyev. – Bakı: Çaşıoğlu, 2009. – 178 s.

## Поэтические контуры национальной театральной режиссуры

**Шахла Гейдарли**
Азербайджанский государственный университет культуры и искусства
E-mail: shahla.heydarli@admiu.edu.az

**Резюме.** Объектом исследования статьи являются аспекты развития театрального искусства в период после восстановления независимости. Цель исследования – определить место нравственных ценностей в системе духовности, полученной в результате глубокого анализа и детального анализа театрального процесса, претерпевшего ряд изменений в новых общественно-политических условиях. В статье рассматривается процесс возрождения театральной поэтики, которая была идейно-эстетически деформирована в результате давления в годы бывшей советской власти. Научно-исследовательская работа важна с точки зрения изучения существенных изменений в средствах языковой выразительности современного национального театрального искусства. Здесь анализируются факторы, влияющие на мировой театральный процесс, при условии сохранения богатых традиций национального театрального искусства, оказывающих серьезное влияние на сущность нашей культуры и искусства.
**Ключевые слова:** сценическая культура, эстетическая мысль, творчество, нравственные ценности, художественная мысль